

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 27 iyun 2022-ci il №49 (2660) https://mod.gov.az Qiyməti 30 qəpik

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Komando hərbi hissələri bizim gücümüzü daha da artıracaq

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev iyunun 26-da - Silahlı Qüvvələr Günündə Kəlbəcər rayonuna səfəri çərçivəsində komando hərbi hissəsinə döyüş bayrağının verilməsinə həsr olunmuş təntənəli mərasimdə iştirak edib.*



AZƏRTAC xəbər verir ki, müdafiə naziri general-polkovnik Zakir Həsənov Ali Baş Komandan İlham Əliyevə raport verib.

Müdafiə naziri yeni inşa edilən hərbi şəhərciyin baş planı barədə Ali Baş Komandana məlumat verib.

Prezident, Ali Baş Komandan İlham Əliyev şəxsi heyəti salamlayıb və hərbçiləri 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə təbrik edib.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Şəxsi heyət hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himnini ifa edib.

Dövlətimizin başçısı tədbirdə çıxış edib.

### Prezident, Ali Baş Komandan İlham Əliyevin çıxışı

- Bu gün biz Silahlı Qüvvələr Gününü Kəlbəcərdə qeyd edirik, azad olunmuş Kəlbəcərdə. Eyni zamanda, bu gün Kəlbəcərdə yeni yaradılmış komando qüvvələrinin hərbi hissəsi açılır.

Altı ay bundan əvvəl, dekabrın 24-də birinci komando hərbi hissəsi azad edilmiş Hadrutda istifadəyə verilmişdir. Bu gün Kəlbəcərdə yeni yaradılmış komando qüvvələrinin hərbi hissəsini açırıq. Bu, onu göstərir ki, İkinci Qarabağ müharibəsindən sonra ordu quruculuğu prosesi sürətlə gedir və komando qüvvələri bütün digər silahlı birləşmələrlə bərabər ölkə qarşısında duran bütün vəzifələri yerinə yetirmək, ərazi bütövlüyünü müdafiə etmək və sərhədlərimizi qorumaq üçün bütün imkanlara malikdir.

Bu gün Silahlı Qüvvələrimizlə fəxr edə bilərik. Bu gün biz müzəffər xalq kimi, qalib ölkə kimi Ordu Gününü qeyd edirik. İşğal illəri dövründə hərbçilərlə çoxsaylı görüşlərdə - hərbi hissələrdə, səngərlərdə, Lələtəpə zirvəsində, hərbi paradlarda hər zaman deyirdim ki, gün gələcək biz öz doğma torpaqlarımızı qaytaracağıq. Hər zaman deyirdim ki, Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan çıxmasa, biz hərbi yolla Qarabağ məsələsini həll edəcəyik. Belə də oldu. Müzəffər Azərbaycan Ordusu tarixi missiyanı şərəflə yerinə yetirdi.

Biz Vətən müharibəsində xalqımızın böyüklüyünü göstərdik, yenilməz ruhumuzu göstərdik, güclü iradəni göstərdik və göstərdik ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmaq fikrində deyildi. Sadəcə olaraq, biz istəyirdik ki, bu məsələ sülh yolu ilə həll olunsun və uzun illər apardığımız danışıqların məqsədi məhz bu idi. Biz istəmirdik ki, qan tökülsün. Ümid edirdik ki, beynəlxalq aləm Ermənistana sanksiyalar tətbiq etməklə işğalçını məcbur edib bizim torpağımızdan çıxaracaq. Ancaq əfsuslar olsun ki, biz bunu görmədik və Azərbaycan xalqı bütün gücünü səfərbər edib tarixi şərəfli missiyanı yerinə yetirib.

Biz müzəffər xalq kimi, qalib dövlət kimi bundan sonra əbədi yaşayacağıq. Ancaq biz bu şanlı Qələbəni əldə etmək üçün güc toplamalı idik. Çünki bu gün dünyada güc amili ön plandadır. Beynəlxalq hüququn norma və prinsipləri işləmir, beynəlxalq təşkilatlar faktiki olaraq fəaliyyəti formal şəkildə davam etdirir. Haqq-ədalət bizim tərəfimizdə idi, beynəlxalq hüquq bizim tərəfimizdə idi, bizim torpaqlar işğal altında idi. Ancaq işğalçıya heç kim "Azərbaycan torpaqlarından çıx!" deməmişdir. Ona görə biz güc toplamalı idik ki, özümüz bu vəzifəni icra edək və toplayırdıq. Siyasi güc topladıq, beynəlxalq aləmdə öz gücümüzü artırdıq. Bütün dünyaya sübut etdik ki, Qarabağ Azərbaycandır və Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq. İqtisadi güc topladıq və iqtisadi müstəqillik əldə etdik. Əgər iqtisadi müstəqillik olmasaydı, imkanlarımız olmasaydı, biz müharibəni hansı vasitələrlə aparacaqdıq? Ona görə iqtisadi müstəqillik və sürətli inkişaf bizim Qələbəmizi yaxınlaşdırırdı.

Vətənpərvərlik işinə çox böyük önəm verirdik. Gənc nəsli vətənpərvərlik ruhunda tərbiyə etmək üçün bir çox tədbirlər görülmüşdür və buna nail olduq. Bu gün Azərbaycan gəncləri vətənpərvər gənclərdir, Vətənə bağlıdır və Vətən müharibəsi bunu bütün dünyaya göstərdi. Bizi Qələbəyə aparan ən başlıca amil milli ruh, ləyaqət, Vətənə sevgi idi və bunu gənc nəslin nümayəndələri, müstəqillik dövründə yetişən gənclər etdilər. Öz canlarını fəda edərək, ölümə gedərək bunu etdilər. Əziz şəhidlərimizin xatirəsi daim bizim qəlbimizdə yaşayacaq. Ona görə vətənpərvərlik, nizam-intizam, iqtisadi güc, siyasi mövqelər və əlbəttə ki, Silahlı Qüvvələrimizin müasir silahlarla təchiz edilməsi - bütün bu amillərin vəhdəti İkinci Qarabağ müharibəsinin nəticələrini şərtləndirdi. Cəmi 44 gün ərzində biz düşməni torpağımızdan qovduq, düşməni diz çökdürdük, onu məcbur etdik ki, ağ bayraq qaldırsın və Kəlbəcərdən məcbur olaraq çıxsın. Kəlbəcər bir güllə atılmadan azad edilmişdir. Biz onsuz da Kəlbəcəri azad edəcəydik. Çünki artıq Ermənistan ordusunun beli qırılmışdı, ancaq itkilər çox olacaqdı. Ona görə 44 gün ərzində Ermənistan ordusunu elə vəziyyətə saldıq ki, onların başqa yolu qalmamışdı.

(Ardı 2-ci səhifədə)

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Komando hərbi hissələri bizim gücümüzü daha da artıracaq






(Əvvəli 1-ci səhifədə)

Bizim şanlı müharibəmiz indi müxtəlif ölkələrin ali məktəblərinin hərbi dərsliklərindədir və bunu bir çox hərbi ekspertlər qeyd edirlər. Çox çətin relyefi olan ərazini, Şuşa kimi alınmaz qalanı cəmi 44 gün ərzində azad etmək ancaq Azərbaycan əsgərinin ruhu, gücü hesabına mümkün olmuşdur. Biz bütün dünyaya göstərdik ki, həm ruhən, həm fiziki cəhətdən, həm peşəkarlıq, həm döyüş qabiliyyəti, həm də Vətənə olan sevgi və məhəbbət nöqteyi-nəzərindən böyük xalqıq. Biz bu gün qalib insanlar kimi yaşayırıq. Bütün dünya azərbaycanlıları yaşadıqları yerlərdə başlarını dik tutub qalib xalqın nümayəndələri kimi yaşayırlar. Biz tarix qarşısında, əcdadlarımızın ruhu qarşısında və gələcək nəsillər qarşısında tarixi missiyanı icra etdik. Bu tarixi Qələbə daim bizim tariximizdə olacaq. Biz daim bu tarixi Qələbə ilə fəxr edəcəyik.

Ermənistan ordusu 44 gün ərzində demək olar ki, məhv edilmişdir. Ermənistan ordusunda panika, isterika vüsət almışdı. Özlərinin etirafına görə, 10 min fərari olmuşdu. Azərbaycan Ordusunda bir nəfər də döyüş meydanından qaçmadı. Budur Azərbaycan övladının ruhu, Vətənə olan bağlılığı. Qarabağın tacı olan Şuşanı - bu alınmaz qalanı alaraq biz Şuşada Azərbaycan bayrağını ucaltdıq. Ermənistan məcbur olub kapitulyasiya aktına imza atıb və o vaxt işğal altında qalan ərazilərdən çıxmağa məcbur olub.



Biz indi bütün sərhəd boyunca yerləşmişik. Bütün sərhədlərdə hərbi hissələr yaradılmışdır. Müharibədən keçən ilyarım ərzində biz gecə-gündüz çalışmışıq ki, ordumuzu daha da gücləndirək, daha da müasir silahlarla təchiz edək, sərhəd boyunca bütün əlverişli mövqelərə sahib olaq, yerləşək və buna nail olduq. Altı ay bundan əvvəl Hadrutda birinci komando hərbi hissəsi açılmışdır. Bu gün Kəlbəcərdə ikinci komando hərbi hissəsi açılır. Növbəti komando hərbi hissələrinin açılması nəzərdə tutulur və bu silahlı birləşmələrdə minlərlə azərbaycanlı xidmət edəcək. Bu, bizim gücümüzü daha da artıracaq.

Müharibədən sonra bu gün Azərbaycan Ordusu daha güclüdür - həm təchizat nöqteyi-nəzərdən, həm də döyüş qabiliyyəti nöqteyi-nəzərdən. Ona görə biz bundan sonra da Ordumuzun inkişafı üçün ciddi addımlar atacağıq. Ən müasir silahları almaq üçün yeni kontraktlar imzalandı. Bu kontraktlar artıq icra olunur, yeni silahlar, ən müasir texnika Azərbaycana gətirilir və gətiriləcək. Ermənistanla sərhəddə bizim mövqelərimiz daha da möhkəmlənəcək. Əgər Ermənistan sərhədlərin müəyyən edilməsi işində yenə də öz köhnə taktikasına qapılsa, vaxt uzatmağa çalışsa, nəticədə özü peşman olacaq. Biz Ermənistanda baş qaldıran revanşist qüvvələrin hərəkətlərinə diqqətlə baxırıq. Onlar da bunu bilsinlər. Bax, o dağın başında mənim sözlərim yazılıb: "Dəmir yumruq" yerindədir, bunu heç kim unutmasın".






Vətən müharibəsində Ermənistanı məğlub etməyimiz onlar üçün dərs olmalıdır. Onlar hesab edirdilər ki, orduları məğlubedilməzdir və öz orduları haqqında olmayan şayiələri yayırdılar. Biz göstərdik ki, onlar Azərbaycan Ordusu qarşısında duruş gətirə bilməzlər. Onlar bəyan edirdilər ki, Azərbaycan öz torpaqlarını heç vaxt silahlı yollarla ala bilməz. Çünki həm qurulmuş istehkamlar, həm 30 il ərzində mühəndislik işlərinin aparılması, həm də ki, bu bölgənin coğrafiyası onlar üçün çox əlverişli idi. Biz bu mifi də dağıtdıq və göstərdik ki, güclü iradə olan yerdə, xalq-iqtidar birliyi olan yerdə, hərbçilərin vətənpərvərliyi olan yerdə heç kim bizim qabağımızda dura bilməz. Əgər yenə də Ermənistanda revanşist qüvvələr baş qaldırsa, bilməlidirlər ki, onları nələr gözləyir.

Biz müharibə istəmirik, heç vaxt istəməmişik. Amma biz istəyirik ki, bizim maraqlarımız təmin olunsun. Biz istəyirik ki, müharibə nəticəsində yaradılmış reallıqlar hamı tərəfindən qəbul edilsin. Deyə bilərəm ki, dünyanın aparıcı qüvvələri postmüharibə reallıqlarını artıq qəbul ediblər və öz fəaliyyətini bu reallıqlar əsasında qururlar. Ermənistan da bu reallığı qəbul etməlidir. Müharibədən cəmi bir il yarım keçibdir. Bu müharibəni unutmasınlar - nə onlar, nə də ki, sonrakı nəsillər. Bilsinlər ki, Azərbaycan güclü dövlətdir, Azərbaycanın güclü ordusu var, Azərbaycan əsgəri, zabiti dövlətimizi qorumaq üçün canını fəda etməyə hazırdır, necə ki, İkinci Qarabağ müharibəsində canlarını fəda etdilər.

Ordu quruculuğu ilə bağlı işlər planlı şəkildə gedir. Kəlbəcər rayonunda, Laçın rayonunda və azad edilmiş digər rayonlarda bir çox hərbi hissələr yaradılır və xidmət şəraiti də yaxşıdır. Bütün şərait təmin edilir ki, hərbçilərimiz xidmət şəraitini nəzərə alaraq daha yaxşı xidmət etsinlər.

(Ardı 3-cü səhifədə)

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Komando hərbi hissələri bizim gücümüzü daha da artıracaq






(Əvvəli 2-ci səhifədə)

Bu gün Ordu Gününü Kəlbəcərdə qeyd etməklə biz hamımız qürur hissi keçiririk. Kəlbəcər 1993-cü ilin aprel ayında işğal altına düşmüşdü. O vaxt hakimiyyətdə olan AXC-Müsavat xəyanətkar cütlüyü Kəlbəcəri nəinki müdafiə etmirdi, hətta Kəlbəcəri qurban verməyə hazır idi, bunu da etdi. Ondan əvvəl Laçın və Şuşa işğal altına düşdü və Kəlbəcərin işğal altına düşməsi ermənilərin planlarında idi. AXC-Müsavat hakimiyyəti talançılıqla, soyğunçuluqla məşğul olurdu, orduya, ordu təchizatına fikir vermirdi, bu bölgədə yaşayan insanlara fikir vermirdi, onlara biganə yanaşırdı və Kəlbəcər işğal altına düşdü. Beləliklə, Ermənistan öz arzularına, çoxəsrlik arzularına çatdı ki, Qarabağla, - o zaman "Dağlıq Qarabağ" adlandırılırdı, - bu bölgə ilə Ermənistan arasında canlı bağlantı olsun. Kəlbəcər, Laçın dağları bu bağlantının qabağını almışdı. Kəlbəcərin itirilməsi strateji nöqteyi-nəzərdən böyük faciə idi. Eyni zamanda, burada yaşayan insanların bir çoxu ermənilər tərəfindən öldürülüb, buradan çıxa bilən insanların bir



çoxu Murov dağlarında donub və həyatlarını itirib. İndi buraya gələn hər bir insan Murov dağını aşaraq görür ki, nə qədər çətin yoldur, daim dumanlı yoldur və bu gün səhər mən oradan keçmişəm - yağış, duman. İnsanlar aprelin əvvəllərində o qarlı, şaxtalı havada oradan ayaqyalın keçməyə məcbur idilər. Onlara yolda da işgəncələr verildi, pusqular quruldu. Mənfur düşmən tərəfindən dinc əhali öldürüldü.



Hərbi cinayətkarlar - Sarkisyan, Köçəryan bunu törətdilər: İkinci Qarabağ müharibəsi dövründə Xankəndiyə gəlmişdilər, guya orada müqavimət göstərəcəklər. Dovşan kimi, fərari kimi qaçdılar oradan. Ona görə Kəlbəcərin itirilməsi müharibənin ondan sonrakı gedişatına da əlbəttə ki, mənfi təsir göstərmişdi.

Biz Kəlbəcəri bir güllə atılmadan azad etdik, öz doğma diyarımızı qaytardıq və bu gün Kəlbəcərdə quruculuq işləri gedir. Mən ikinci dəfədir Kəlbəcərə gəlirəm və bu gün də bir çox tədbirlər var. Kəlbəcərin infrastrukturu, elektrik təchizatı, su təchizatı, evlərin tikilməsi - artıq buna start verilir. Əlbəttə ki, biz, ilk növbədə, hərbi təyinatlı yolları inşa etməliydik və bunu etdik. Bu gün bu hərbi hissənin açılması bir daha göstərir ki, biz istədiyimizə nail olacağıq - Qarabağı və Şərqi Zəngəzuru bərpa edəcəyik. Artıq bu proses başlamışdır və ilk növbədə, bu bölgədə - Qarabağda və Şərqi Zəngəzurda bizim hərbi gücümüz daim möhkəm olmalıdır. Ona görə bugünkü mərasim xüsusi məna daşıyır, rəmzi məna daşıyır.

Biz 1993-cü ilin aprelində itirdiyimiz Kəlbəcərdə bu gün Ordu Gününü qeyd edirik, qürurla qeyd edirik. Onu da deməliyəm, işğal dövründə müxtəlif variantlar müzakirə olunurdu, vasitəçilər tərəfindən bizə müxtəlif variantlar təklif edilirdi. Bütün bu variantlarda Kəlbəcərin Azərbaycana qaytarılması məsələsi ayrıca mövzu kimi gündəlikdə idi. Mən hər zaman deyirdim ki, biz bütün torpaqları geri almalıyıq. Beş rayonla biz kifayətlənə bilməzdik. Kəlbəcər, Laçın, Şuşa, digər rayonlar da bizdə olmalıdır, bu, bizim tarixi torpağımızdır, dədə-babalarımızın diyarıdır və buna nail olduq. Kəlbəcərdə bu hərbi bayramı keçirmək əlavə zövq verir, bizim qəlbimizi daha da böyük qürurla doldurur.

Biz bütün dünyaya sübut etmişik ki, biz böyük xalqıq. Qarabağ hər zaman Azərbaycan torpağı olub - işğal dövründə də, müharibə dövründə də, müharibədən sonra da və bu gün də. Qarabağ Azərbaycandır!




**Hərbçilər**: Qarabağ Azərbaycandır!

* * *

Sonra Azərbaycan Respublikası Prezidentinin komando hərbi hissəsinə döyüş bayrağının verilməsi haqqında təqdimatı oxunub.

Polkovnik-leytenant Fəxrəddin Cavadov döyüş bayrağını Ali Baş Komandandan qəbul edərək and içib.

Sonra komando hərbi hissəsinin şəxsi heyəti Müzəffər Ali Baş Komandan qarşısında "Komando andı"nı qəbul edib.

Ali Baş Komandan "Komando andı"nı qəbul edən şəxsi heyəti təbrik edib.

Şəxsi heyət təntənəli marşın sədaları altında döyüş bayrağı ilə tribunanın önündən keçib.

Daha sonra Prezident İlham Əliyev hərbi şəhərcikdə əsgər yeməkxanası, tibb məntəqəsi, əsgər yataqxanası ilə tanış olub, yeni inşa edilən qərargah binasında yaradılan şəraitlə maraqlanıb.

Qərargah binasındakı akt zalında Quru Qoşunlarının komandanı general-leytenant Ənvər Əfəndiyev əməliyyat şəraiti barədə Ali Baş Komandana məlumat verib.

Sonra Prezident İlham Əliyev hərbi şəhərciyin ərazisində uzunömürlülük rəmzi kimi çinar ağacı əkib, şəhidlərin xatirəsinə ucaldılan abidə-kompleksini və "Dəmir yumruq" abidəsini ziyarət edib.

Ali Baş Komandan Silahlı Qüvvələr Günü və yeni hərbi hissənin açılışı münasibətilə Müdafiə Nazirliyinin rəhbərliyini və şəxsi heyəti bir daha təbrik edib, onlara uğurlar arzulayıb.

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Azad olunmuş bütün şəhərlərdə İşğal və Zəfər muzeyləri inşa edilməlidir

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Kəlbəcər rayonunda "İstisu" sanatoriyasının təməlqoyma mərasimində iştirak edib.*

AZƏRTAC xəbər verir ki, Prezidentin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına sanatoriyada görüləcək işlərlə bağlı məlumat verib.

Bildirilib ki, 34 hektar ərazidə salınması nəzərdə tutulan "İstisu" İstirahət-Müalicə Kompleksi gündəlik 300 nəfər qəbul etmək imkanına malik olacaq. Kompleksdə sağlamlıq-bərpa mərkəzi ilə yanaşı, 10 kottecin tikilməsi də planlaşdırılır.

Diqqətə çatdırılıb ki, Kəlbəcərin İstisu kəndinin məşhur mineral suyu olan "İstisu" bulağı ətrafında 1928-ci ildə eyniadlı sanatoriya yaradılıb. İşğal dövründə yararsız hala salınan sanatoriya yeni simada tam bərpa olunacaq və əvvəlki şöhrəti qaytarılacaq.

Prezident İlham Əliyev "İstisu" sanatoriyasının təməlini qoyub.

Sonra dövlətimizin başçısı çıxış edib.



**Prezident İlham Əliyevin çıxışı**

- Kəlbəcər və Laçın rayonlarına mənim səfərim başa çatır. Keçən il olduğu kimi, bu il də burada - İstisu qəsəbəsində başa çatır. İstisu qəsəbəsinin inkişafı ilə bağlı artıq konkret addımlar atılır. İlk növbədə, yeni su zavodunun tikintisi nəzərdə tutulur. Bu gün mən bu su zavodunun təməlini qoydum. Vaxtilə məşhur olan İstisu suyu yenidən buraxılacaq, istehsal olunacaq, Azərbaycanda istehlak olunacaq və ixrac ediləcək. Eyni zamanda, arxada gördüyünüz "İstisu" sanatoriyasının dağıntılarıdır. Keçən il burada bu dağıntılarla tanış oldum və göstəriş verdim ki, bu yerdə - İstisu qəsəbəsində yeni mehmanxana inşa edilsin və müalicə mərkəzi yaradılsın. Çünki vaxtilə sovet dövründə minlərlə insan gəlib burada dincəlib, öz sağlamlığını bərpa edib, bu gözəl təbiətdən zövq alıb.

Bu dağıntılar erməni faşizminin təzahürüdür. Onlar binalarımızı, məscidlərimizi, məktəblərimizi, şəhər və kəndlərimizi dağıdıblar. Bu sanatoriyanı da dağıdıblar. Amma bir müddətdən sonra burada yeni gözəl mehmanxana və müalicə mərkəzi yaradılacaq. Mən hesab edirəm ki, bu, çox vacibdir. Çünki "İstisu" sanatoriyası və İstisu suyu bu bölgənin rəmzi, Kəlbəcərin təbii sərvəti idi. Bu gün biz - bu torpaqların sahibləri vaxtilə əlimizdən alınmış bütün sərvətləri özümüzə qaytarmışıq. Bütün şəhər və kəndləri yenidən, sıfırdan bərpa edirik və edəcəyik, o cümlədən Kəlbəcər rayonunda, Laçın rayonunda böyük quruculuq işləri gedir.

Ancaq mənim iyunun 26-da bu rayonlara səfərimin əsas səbəbi bu gün - Silahlı Qüvvələr Günündə hərbçilərlə bir yerdə olmağımdır. Mən bu gün hərbçilərlə - yeni yaradılmış komando qüvvələri ilə Ordu Gününü Kəlbəcərdə qeyd etdim. Hesab edirəm ki, bunun çox böyük rəmzi mənası var. Hərbi xidmət nöqteyi-nəzərdən bu bölgə - Kəlbəcər-Laçın zonası həm iqlim, həm relyef, həm də təbiət baxımından bəlkə də ən çətin bölgədir. Ona görə bu gün mən burada olmalı idim, müzəffər Ordumuzla bərabər olmalı idim, hər zaman olduğu kimi.

Eyni zamanda, bu fürsətdən istifadə edərək son bir il ərzində burada görülmüş işlərlə də tanış oldum. Gördüm, baxırdım, mənim göstərişlərim necə yerinə yetirilir, ümumiyyətlə, Kəlbəcər və Laçın rayonlarının inkişafı ilə bağlı hansı əlavə addımlar atılmalıdır. Çünki bu rayonların bərpası azad edilmiş digər rayonlara nisbətən daha çətindir. Ona görə ki, biz hələ də Murov aşırımından keçib gəlməliyik. Qış aylarında gediş-gəliş çətindir. Hava limanı hələ hazır deyil ki, yükləri hava yolu ilə göndərək. Ona görə bu bölgələrin, bu iki rayonun inkişafı ilə bağlı işlər gedir. Ancaq, əlbəttə, bu təbii şərait imkan vermir ki, bu işlər daha geniş vüsət alsın. Amma buna baxmayaraq, bütün infrastruktur layihələri uğurla icra edilir. Keçən il 4 su elektrik stansiyası istifadəyə verilib. Bu il isə 5 su elektrik stansiyasının istifadəyə verilməsi təmin ediləcək. Həmin 4 stansiya artıq işləyir və ümumi enerji gücümüzü artırır, bərpaolunan enerji növlərinin həcminin artırılmasına xidmət göstərir.

Yollar çəkilir. Kəlbəcər və Laçın rayonlarında 10-dan çox tunel inşa edilir. Təsəvvür edin, 10-dan çox tunel. Onların arasında ən böyük tunelin uzunluğu təxminən 12 kilometrdir. Biz bu tuneli Murov dağının altından çəkirik ki, buraya gediş-gəliş rahat olsun. Bu, həm mülki əhali üçün, həm hərbçilər üçün, həm də müdafiə nöqteyi-nəzərdən lazımdır. Hazırda bütövlükdə 10-dan çox tunel tikilir və gələcəkdə bu tunellərin sayı daha da çox ola bilər. Çünki burada hər tərəf dağlardır, meşələrdir. Qarabağ bölgəsində isə indi 10-dan çox tunel, 9 viaduk, onlarla körpü inşa edilir. Görün, həm Zəngəzurda, həm də Qarabağda ancaq yol təsərrüfatına aid olan nə qədər genişmiqyaslı işlər görülür. Çünki bunlar - elektrik enerjisi və yol əsasdır. Bunlar olmadan heç bir inkişafdan söhbət gedə bilməz.

Bu gün mənə, eyni zamanda, digər infrastruktur layihələrinin icrası ilə bağlı məlumat verildi. Hesab edirəm ki, qısa müddət ərzində, - müharibədən cəmi ilyarım keçib, - bu genişmiqyaslı işlərin görülməsi həm gücümüzü, niyyətimizi, iradəmizi göstərir, bir daha xalqımızın böyüklüyünü göstərir. Biz bunu təkbaşına edirik və edəcəyik.

Bu gün Kəlbəcər şəhərinin Baş planı mənə təqdim edildi. Bu Baş planı hazırlayan şirkət Zəngilan şəhərinin Baş planını da hazırlayıb. Mən o vaxt demişdim ki, Zəngilan şəhəri təbiətə sıx inteqrasiya olunmalıdır, park-şəhər olmalıdır, Kəlbəcər də həmçinin. Kəlbəcərin də özünəməxsus füsunkar təbiəti var. Kəlbəcər şəhərinin Baş planının təsdiq olunması, əlbəttə ki, bu təbii gözəlliyi ehtiva edir. Artıq ilin sonuna qədər müfəssəl layihələndirmə gedəcək və ondan sonra yaşayış binaları, məktəb, xəstəxana inşa ediləcəkdir. Hərbi hissələr, ictimai yerlər artıq fəaliyyət göstərir. Göstəriş vermişəm ki, Kəlbəcərdə mütləq aşıq mərkəzi və lazım olan digər tikililər inşa edilsin. Bu, ancaq Kəlbəcər şəhərinin Baş planıdır. Kəlbəcər rayonunun inkişafı ilə bağlı isə bizdə konsepsiya artıq hazırdır. Kəndlərin yenidən qurulması konsepsiyamız hazırdır və biz bunu icra edəcəyik.

Laçın rayonunda yeni hava limanı inşa edilir. Bu hava limanının tikintisinin ən çətin tərəfi Laçın rayonunda və Kəlbəcər rayonunda düz yerin olmamasıdır. Ona görə biz dağları yarırıq, dağları kəsirik ki, zolaq üçün uyğun şərait yaradılsın. Ona görə bu torpaq işləri hələ gələn il də davam edəcək. Ümid edirəm ki, 2024-cü ildə Laçın rayonunda beynəlxalq hava limanı açılacaq və ondan sonra gediş-gəliş daha rahat olacaq. Əminəm ki, bu bölgə turizm zonası olacaq. Çünki burada olan təbii gözəllik heç bir yerdə yoxdur. Təbii gözəllik - çaylar, bulaqlar, meşələr - biz bütün bu sərvətdən məhrum idik, ermənilər bizim xalqımızı məhrum etmişdilər. Otuz il ərzində bizim təbii sərvətlərimizi istismar edir, ağaclarımızı kəsirdilər, - 60 min hektar ağac fondu, meşə fondu məhv edilib, - çaylarımızı zəhərləyir, binalarımızı sökür, qızıl yataqlarımızı qanunsuz istismar edirdilər. Hər şeyi qanunsuz edirdilər. Bu gün erməni vəhşiliyi haqqında dünyada kifayət qədər böyük məlumat var və biz bu məlumatı daha da genişləndirəcəyik.

Bu gün, eyni zamanda, Kəlbəcər şəhərində İşğal və Zəfər muzeylərinin təməli qoyuldu. Azad edilmiş bütün şəhərlərdə mənim göstərişimlə İşğal və Zəfər muzeyləri inşa edilməlidir. Artıq bir neçə şəhərdə layihələr təsdiqlənib. Bu gün Kəlbəcər şəhərində də bu layihə təsdiqləndi və təməl daşı atıldı.

Yəni, biz hərtərəfli iş görürük - həm infrastruktur işləri, xəstəxanalar, məktəblər, yaşayış binaları, mədəniyyət obyektləri, məscidlərimizin bərpası, muzeylər, hava limanları, dəmir yolları, tunellər. Cəmi bir il yarım ərzində görülən bütün işləri sadalamaq mümkün deyil. Bu, onu göstərir ki, biz bu torpaqların sahibləriyik. Bu torpaqlar 30 il ermənilərin əlində idi. Nə qoyub getdilər? Xarabaxana, viran qoyulmuş şəhərlər, kəndlər! Dəfələrlə demişəm, hər dəfə də bu dağıntıları görəndə bir daha deyəcəyəm: Elə bil ki, burada vəhşi qəbilə yaşayıb. Burada ondan da eybəcər işlər görülüb - ancaq dağıtmaq, sökmək, yandırmaq. Bu qədər nifrət, bu qədər qeyri-insani hərəkət, görəsən, haradan qaynaqlanır? Bunu gərək psixoloqlar, yaxud psixiatrlar bizə desinlər. Çünki normal adam bu əməllərə əl atmaz.

Biz isə qurub-yaradan xalqıq. Biz gəlmişik, tamamilə dağılmış 10 min kvadratkilometr ərazidə yeni həyat qururuq. Artıq yeni həyatın təzahürləri görünməkdədir. Azad edilmiş şəhərlərimizdə, kəndlərimizdə artıq geniş inşaat işləri gedir. Məsələn, mənə verilən məlumata görə, indi Şuşa şəhərində mindən çox insan yerləşib və inşaat işləri ilə məşğuldur, xidmət sahəsində işləyir. Artıq Ağdamda sənaye parkı yaradılır. Zəngilanda, Ağalı kəndində birinci "ağıllı kənd" layihəsi istismara verilmişdir. Yəni, bunu biz edirik, biz - bu torpaqların sahibləri. Ancaq hər kəs bilməlidir, bu, çox genişmiqyaslı işdir.

Bununla bərabər, Ermənistanla bütün sərhəd boyunca yeni mövqelər, yeni postlar quraşdırılır. Heç vaxt olmayan, Ermənistan sərhədinə gedən bir çox yollar salınır ki, biz mövqelərə daha rahat gələ bilək.

Bütün bu işlərin həcmi bir daha xalqımızın böyüklüyünü göstərir. Onu göstərir ki, bir daha demək istəyirəm, biz bu torpaqların sahibiyik, buraya qayıtmışıq və burada əbədi yaşayacağıq. Qarabağ Azərbaycandır!

# General-polkovnik Zakir Həsənov:

# İldönümü geriyə baxış, görülən işlərin təhlili və gələcək planların dəqiqləşdirilməsidir

*Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov 26 iyun - Silahlı Qüvvələr Günü münasibətilə müsahibə verib.*



**- Cənab nazir, ilk növbədə, Sizi və Azərbaycan Ordusunun şəxsi heyətini 26 iyun - Silahlı Qüvvələrimizin yaradılmasının 104-cü ildönümü münasibətilə ürəkdən təbrik etmək istərdik. İşinizdə müvəffəqiyyətlər, yeni zirvələrin fəth edilməsini arzulayırıq. Ordumuz bu bayramı hansı əhval-ruhiyyədə qarşılayır?**

- Ən əsası, azad edilmiş ərazilərimizin qorunması ilə bağlı daşıdığımız cavabdehliyə və etimada görə böyük məsuliyyət, eyni zamanda, sonsuz qürur və iftixar hissi ilə. Vətən müharibəsində qazandığımız Qələbə Azərbaycan xalqının şanlı qəhrəmanlıq salnaməsinin təcəssümüdür. Haqq savaşında canından keçən qəhrəman şəhidlərimizin xatirəsi yaddaşlarda əbədi yaşayacaq. Biz bu bayramı qalib Ordu kimi qarşılayırıq. Müzəffər Ali Baş Komandanımızın qətiyyəti, müdrik hərbi strategiyası əsasında Azərbaycan Ordusu Vətən müharibəsində rəşadət və şücaət göstərərək düşmənin 30 ildən artıq davam edən hərbi təcavüzünə son qoymaqla Vətən və xalq qarşısında şərəfli vəzifəsini layiqincə yerinə yetirdi. Vətənin keşiyində yüksək əhval-ruhiyyədə dayanan Azərbaycan Ordusunun şəxsi heyəti torpaqlarımızın müdafiəsi naminə Ali Baş Komandanın hər bir əmrinə daim hazırdır.

Onu da qeyd edim ki, bütün sahələrdə olduğu kimi, ordu quruculuğunda da hər ildönümü geriyə, qət edilmiş yola baxış, görülən işlərin təhlili və gələcək planların dəqiqləşdirilməsi mərhələsidir. Qürurverici məqamdır ki, Ordumuz da 104-cü ildönümünü böyük uğurlarla qarşılayır və fəxr hissi ilə qeyd edir.

**- Ali Baş Komandanın göstərişinə əsasən, Orduda genişmiqyaslı islahatlar aparılır, Ordumuz qardaş Türkiyə Silahlı Qüvvələrinin modelinə uyğunlaşdırılır. Siz bu prosesi necə qiymətləndirirsiniz və Azərbaycan Ordusunun potensialını necə dəyərləndirirsiniz? Mümkünsə, ordumuzda aparılan islahatlar çərçivəsində görülən işlər barədə söz açardınız...**

- Uğurlu "Dəmir yumruq" əməliyyatından sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Azərbaycan Ordusunun Türkiyə Silahlı Qüvvələrinin kiçik modeli kimi yeni keyfiyyət mərhələsinə yüksəlməsi, habelə qoşunların ən müasir silah və hərbi texnika, bütün təminat növləri ilə təmin edilməsi barədə müvafiq göstərişlər verdi. Eyni zamanda, dövlətimizin başçısının Fərmanı ilə Azərbaycan Ordusunun təşkilati-ştat quruluşunda əsaslı dəyişikliklər aparıldı və Azərbaycan Ordusunun tərkibində Quru Qoşunları, əməliyyat (komando) birləşmələri və Milli Müdafiə Universiteti yaradıldı. O cümlədən Xüsusi Təyinatlı Qüvvələr və Hərbi Dəniz Qüvvələrinin ştatlarının optimallaşdırılması həyata keçirilərək qüvvə və vasitələrinin sayı artırıldı.

Azərbaycan Ordusunda həyata keçirilən islahatlar çərçivəsində yaradılan əməliyyat (komando) birləşmələrinin şəxsi heyəti peşəkarlıq səviyyəsinin yüksəldilməsi məqsədilə Türkiyə Silahlı Qüvvələrinin bazasında hazırlıq kurslarına cəlb edilib. Hazırlıq kurslarında fərqlənən və yüksək nailiyyətlər əldə edən hərbi qulluqçular əlavə olaraq təlimatçı kurslarına cəlb ediliblər. Nəticə olaraq Azərbaycan Ordusunda Komando Təlim Mərkəzi yaradılıb. Hazırda sözügedən təlim mərkəzində bu birləşmələr üçün şəxsi heyətin hazırlanması davam etdirilir.

Bundan başqa, Türkiyə Silahlı Qüvvələrinin bazasında hazırlanmış təlimatçıların cəlb olunması ilə Komando Təlim Mərkəzinin nəzdində "Snayper hazırlığı kursu" fəaliyyətə başlayıb və bir neçə hazırlıq mərhələsi üzrə peşəkar snayperlərin hazırlanmasına nail olunub.

Vətən müharibəsində əldə edilmiş təcrübələrə əsasən qoşunların idarəedilməsi ilə bağlı Azərbaycan Ordusunun qoşun (qüvvə) növləri komandanlıqlarında Döyüşü İdarəetmə mərkəzləri və onların tabeliyində olan bölmələrdə döyüşü idarəetmə qrupları yaradılıb, heyətlərin hazırlığı və onların komplektləşdirilməsi işləri təşkil edilib.

Müdafiə Nazirliyinin strukturuna daxil olan xüsusi təyinatlı təhsil müəssisələrində Vətən müharibəsinin təhlili aparılmış, nəticələrinin tətbiqi məqsədilə tədris proqramlarında yeniliklər edilib. Bundan əlavə, müharibənin təhlilinə həsr olunmuş çoxsaylı tədqiqat işlərinin nəticələri xarici və yerli mətbu orqanlarda nəşr olunub, xüsusi təyinatlı təhsil müəssisələrinin professor-müəllim heyəti tərəfindən bir çox ölkədə keçirilən konfrans və simpoziumlarda İkinci Qarabağ müharibəsinin unikallığının tutarlı faktlarla təsbit olunduğu barədə məruzələr edilib. Eyni zamanda, müharibənin fərqli aspektləri üzrə tədqiqat işlərinin aparılması davam etdirilir və yaxın gələcəkdə konkret məsələlər üzrə dissertasiya işlərinin müdafiəsi planlaşdırılır ki, bu da Azərbaycanda hərb elminin inkişafına öz töhfəsini verəcək.

Elm və təhsilin keyfiyyət səviyyəsinin beynəlxalq standartlara uyğunlaşdırılması çərçivəsində Müdafiə Nazirliyinin strukturuna daxil olan xüsusi təyinatlı təhsil müəssisələri şəbəkəsinin fəaliyyətinin təkmilləşdirilməsi, hərbi elm və təhsil sisteminin inkişaf etdirilməsi, Azərbaycan Ordusunda ali təhsilin bütün səviyyələri və əlavə təhsil proqramları üzrə ixtisaslı kadrlarla təminatın həyata keçirilməsi, yüksək ixtisaslı elmi və elmi-pedaqoji kadrların hazırlanması, onlarda praktik fəaliyyətdə elmi yanaşma bacarıqlarının formalaşdırılması, elmi nəticələrin ölkənin müdafiə qüdrətinin yüksəldilməsində və ordu quruculuğunun təkmilləşdirilməsində effektiv tətbiqi, habelə dövlət orqanlarında çalışan yüksək vəzifəli şəxslərə hərbi-strateji, hərbi-iqtisadi və hərbi-siyasi məsələlərin öyrədilməsinin təmin edilməsi məqsədilə hərbi təhsil sisteminin Türkiyə Respublikasının və inkişaf etmiş digər ölkələrin hərbi təhsil sisteminə uyğunlaşdırılması istiqamətində uğurlu iş aparılıb.

Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 5 mart tarixli Fərmanı ilə Müdafiə Nazirliyinin strukturunda Milli Müdafiə Universiteti, Hərbi Elmi-Tədqiqat İnstitutu və Hərbi İdarəetmə İnstitutu yaradılıb. Həmçinin Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin bazasında Heydər Əliyev adına Hərbi İnstitut yaradılıb. Bununla yanaşı, "Xüsusi təyinatlı təhsil müəssisələrinin siyahısı"na dəyişiklik edilərək Hərbi Elmi-Tədqiqat İnstitutu, Hərbi İdarəetmə İnstitutu, Heydər Əliyev adına Hərbi İnstitut, Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzi, Cəmşid Naxçıvanski adına Hərbi Lisey və Heydər Əliyev adına Hərbi Lisey Milli Müdafiə Universitetinin tabeliyinə verilib. Cənab Prezidentin 2022-ci il 5 mart tarixli daha bir Fərmanı ilə Milli Müdafiə Universitetinin, Hərbi Elmi-Tədqiqat İnstitutunun, Hərbi İdarəetmə İnstitutunun və Heydər Əliyev adına Hərbi İnstitutun Nizamnamələri də təsdiqlənib.

Milli Müdafiə Universiteti tabeliyində xüsusi təyinatlı təhsil müəssisələri vasitəsilə ali təhsilin bütün səviyyələri üzrə mütəxəssis hazırlığını, ümumi təhsilin tam orta təhsil, orta ixtisas və əlavə təhsil proqramlarının həyata keçirilməsini təmin edən, fundamental, nəzəri-metodoloji, pedaqoji-metodiki və tətbiqi elmi tədqiqatlar aparan Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin strukturuna daxil olan xüsusi təyinatlı dövlət ali təhsil müəssisəsi kimi fəaliyyət göstərəcək.

Milli Müdafiə Universitetinin tabeliyində olan xüsusi təyinatlı təhsil müəssisələrinin fəaliyyətində fasiləsizlik, vəhdətlik, daimilik - mövcud təhsil standartları, tədris proqramları və planları əsasında təhsilin bir neçə səviyyədə əldə edilməsi imkanı, təhsilin ayrı-ayrı pillələri arasında sıx dialektik qarşılıqlı əlaqənin təmin olunması və onun insanın bütün həyatı boyu ardıcıl davam etməsi əsas götürülüb.

Müdafiə Nazirliyinin tabeçiliyində olan xüsusi təyinatlı təhsil müəssisələrinin strukturunda əsaslı dəyişikliklərin edilməsi Azərbaycan Ordusunda elm və təhsilin səviyyəsinin Türkiyə Respublikasının və inkişaf etmiş digər ölkələrin hərbi elm və təhsil sisteminə uyğunlaşdırılmasına töhfə verəcək.

Aparılan islahatlar millilik və dünyəvilik - milli və ümumbəşəri dəyərlərin qorunması və onların dialektik vəhdətinin təmin edilməsi əsasında inkişaf və dünyəvi təhsil sisteminə inteqrasiyaya əsaslı dayaq olacaq.

**- İşğaldan azad edilmiş ərazilərimizdə aparılan quruculuq işlərin tərkib hissəsi olan hərbi obyektlərin tikilməsi və hərbi infrastrukturun yaradılması, hərbi hissələrdə xidməti-döyüş şəraitinin yaradılması və sosial-məişət şəraitinin yaxşılaşdırılması sahəsində görülən işlər barədə nə demək olar?**

- Azərbaycan Respublikası Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, işğaldan azad edilmiş ərazilərində yerləşən hərbi hissələrin şəxsi heyətinin məişət şəraitinin yaxşılaşdırılması və fasiləsiz təminatını təşkil etmək məqsədilə qısa müddətdə yeni yataqxana, yeməkxana, hamam-camaşırxana kompleksi, anbarlar və digər obyektlər istifadəyə verilib. Vətən müharibəsindən sonrakı müddət ərzində ümumilikdə yeni tikilən, təmir-bərpa işləri aparılan obyektlərin sayı 200-ə yaxındır. Bu, həm ölkəmizin iqtisadi qüdrətinin, həm də ölkə Prezidentinin ordumuza olan diqqət və qayğısının bariz nümunəsidir.

Azad olunan ərazilərdə bölmələrin elektrik enerjisi ehtiyacının davamlı təmin olunması məqsədilə artıq 20-dən çox hərbi obyekt günəş batareyaları və panellərlə təchiz olunub. Həmçinin ildırım vurma təhlükəsi olan dağlıq ərazilərdə şəxsi heyətin, hərbi infrastrukturun, binaların və rabitə qurğularının təhlükəsizliyinin təmin edilməsi məqsədilə 200-ə yaxın ildırım ötürücü quraşdırılıb.

İşğaldan azad olmuş ərazilərdə şəxsi heyətin tibbi təminatının təşkil edilməsi məqsədilə dörd ədəd yeni və tam təchizatlı tibb məntəqəsi, Kəlbəcər şəhərində yeni hərbi hospital istifadəyə verilmiş, Hadrut qəsəbəsində isə daha bir hərbi hospitalın qısa müddətdə istifadəyə verilməsi planlaşdırılır.

Kəlbəcər və Laçın rayonlarının ərazisində dislokasiya olunmuş hərbi hissələrin şəxsi heyətini çörəklə fasiləsiz təmin etmək üçün yeni çörəkbişirmə sexləri tikilərək istifadəyə verilmiş, təminatın yaxşılaşdırılması məqsədilə yanacaq, ərzaq və əşya anbarlarının yaradılması işlərinə başlanıb.

Qoşunların hərəkət qabiliyyətinin yüksəldilməsi və hərtərəfli təminatının fasiləsiz yerinə yetirilməsi məqsədilə işğaldan azad edilmiş ərazilərdə yol infrastrukturu inkişaf etdirilib, yeni yolların çəkilməsi və bərpası işləri aparılıb. Ümumilikdə 800 km-dən çox yeni yol çəkilib.

**- Cənab nazir, bir qədər də Türkiyə-Azərbaycan hərbi əməkdaşlığı mövzusuna nəzər salaq…**

- Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlıq yüksələn xətlə inkişaf edir. Buna ilk növbədə iki ölkənin dövlət başçılarının səmimi münasibətləri təkan verir. Strateji müttəfiqliyimiz dostluq və qardaşlıq əlaqələri üzərində qurulub. Vətən müharibəsi zamanı qardaş Türkiyənin Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstək danılmazdır. Bildiyiniz kimi, 2021-ci il iyunun 15-də Şuşada Azərbaycan və Türkiyə prezidentləri tərəfindən iki qardaş ölkə arasında strateji müttəfiqlik barədə Bəyannamə imzalanıb. Bu Bəyannamənin ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsində, deyərdim ki, müstəsna rolu var. Bəyannamədən irəli gələn fəaliyyətlər Azərbaycan Ordusunda planlı şəkildə yerinə yetirilir.

Türkiyə Silahlı Qüvvələrinin mühəndis-istehkam ixtisaslı mütəxəssisləri azad olunmuş ərazilərimizin mina və partlamamış döyüş sursatlardan təmizlənməsi prosesində bizə bilavasitə kömək edirlər. Belə ki, türkiyəli təlimatçılar tərəfindən mühəndis bölmələrinin şəxsi heyəti ilə beynəlxalq standartlara cavab verən xüsusi minatəmizləmə və digər kurslar keçirilir. Yeri gəlmişkən, qeyd etməliyəm ki, mühəndis bölmələrinin şəxsi heyəti işğaldan azad olunmuş rayonlarımızda bu günədək ümumilikdə 21 min hektara yaxın ərazini minalardan və partlamamış hərbi sursatlardan təmizləyib. Ərazilərin təmizlənməsi zamanı 9464 ədəd partlamamış hərbi sursat, piyada əleyhinə 6126, tank əleyhinə 2172 mina, ümumilikdə 18 min ədədə yaxın hərbi sursat aşkarlanaraq məhv edilib.

(Ardı 6-cı səhifədə)

# General-polkovnik Zakir Həsənov:

# İldönümü geriyə baxış, görülən işlərin təhlili və gələcək planların dəqiqləşdirilməsidir

(Əvvəli 5-ci səhifədə)

Vətən müharibəsi başa çatdıqdan sonra yaralanan və döyüşün psixoloji təsirinə məruz qalan hərbi qulluqçuların ölkəmizdə və qardaş Türkiyə Respublikasında müalicəsi və reabilitasiyası istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilib.

Müxtəlif səviyyəli qarşılıqlı səfərlərimiz ikitərəfli münasibətlərin inkişaf edilməsinə töhfə verməkdədir. İki ölkə arasında hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə olan əməkdaşlığımız uğurla inkişaf edir. Bu il Bakıda yüksək səviyyədə keçirilən və böyük marağa səbəb olan "TEKNOFEST Azərbaycan" festivalı xüsusi əhəmiyyət kəsb etməsi ilə yanaşı, Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin daha bir bariz nümunəsi oldu.

Vətən müharibəsində əldə edilən təcrübələrin təhlili əsasında Türkiyə Silahlı Qüvvələrinin də modeli nəzərə alınaraq yeni döyüş təlimatları hazırlanır. Türkiyə Silahlı Qüvvələri zabitlərinin iştirakı ilə təşkil edilən bir çox kurslara xeyli sayda hərbi qulluqçunun cəlb olunması mütəxəssis hazırlığını yeni səviyyəyə yüksəldib.

Bilirsiniz, peşəkar ordunun formalaşdırılması çoxşaxəli prosesdir. Bunun üçün uzun illər, bəzən onilliklər tələb olunur. Bizim işimizi yüngülləşdirən və əvvəlcədən də nəticənin uğurlu olacağına təminat verən amil Ali Baş Komandanın ordu quruculuğunu prioritet məsələ elan etməsi, bu prosesə bağlı səmərəli ideyaların, aydın təsəvvürlərin və onun rəhbərliyi altında aparılan hərbi islahatların, atılan addımların konkret istiqamətləri üzrə dəqiq proqramın olmasıdır.

**- NATO ilə hərbi əməkdaşlığımız hansı səviyyədədir?**

- Azərbaycan Ordusunun tələbatını nəzərə alaraq, Azərbaycan-NATO əlaqələrinə və ikitərəfli əməkdaşlığa əsasən, digər dövlətlərin hərbi təhsil müəssisələrində müxtəlif ixtisaslar üzrə kifayət qədər gənclərimiz təlim alırlar.

Azərbaycan-NATO Birgə Təlim və Tədris Fəaliyyət Planına müvafiq olaraq, Azərbaycan Ordusunun tədris müəssisələrində "Müdafiə strategiyası və planlaşdırılması" adlı yeni fənn tədris proqramına əlavə edilib.

"Tərəfdaşlığın Qərargah Vəzifəsi Konsepsiyası" çərçivəsində NATO qərargahlarında Azərbaycan Ordusunun təmsil olunmasını təmin etmək məqsədilə NATO-nun yuxarı səviyyəli qərargahlarında Azərbaycan Ordusu zabitlərinin xidmət keçməsinin hərbi sahədə qabaqcıl və beynəlxalq təcrübənin, eləcə də NATO və tərəfdaş dövlətlərin silahlı qüvvələri ilə qarşılıqlı əməliyyat uyarlılığının əldə olunmasında müstəsna rol oynadığı nəzərə alaraq, Ordumuz üçün daha çox fayda verə biləcək vəzifələr müəyyən edilib və Tərəfdaşlıq Qərargah Vəzifələrinin sayının yaxın vaxtlarda bir qədər də artırılması planlaşdırılır. Bu artım nəticəsində NATO-nun Niderland Krallığının Brunsum şəhərindəki Birləşmiş Qüvvələr Komandanlığının Hərbi-mülki əlaqələr və hərbi tərəfdaşlıq idarəsinin Hərbi tərəfdaşlıq şöbəsində Regional əlaqələndirmə üzrə qərargah zabiti və Türkiyənin İzmir şəhərində Quru Qoşunları Komandanlığında Əməliyyat İmkanları Konsepsiyası üzrə qərargah zabiti vəzifələrinə Azərbaycan Ordusunun nümayəndələri təyin olunacaqlar.

İkitərəfli əməkdaşlıq proqramları və NATO "Sülh Naminə Tərəfdaşlıq" proqramı çərçivəsində minaların zərərsizləşdirilməsi, idarəetmə, hərbi tibb və s. sahələrdə təcrübələrinin öyrənilməsi məqsədilə xarici dövlətlərin müdafiə təsisatları ilə əlaqələr genişləndirilib və ekspert görüşlərinin sayı artırılıb. Azərbaycan Ordusunda aparılan islahatlar çərçivəsində beynəlxalq təcrübənin öyrənilməsi və tətbiq edilməsi məqsədilə NATO-nun Fərdi Tərəfdaşlığın Əməliyyat Planı çərçivəsində yeni Tərəfdaşlıq məqsədi - "Strateji kommunikasiya" qəbul edilib. Şübhəsiz ki, bu, Azərbaycan Ordusunun strateji kommunikasiya sahəsində imkan və qabiliyyətlərinin artırılmasına töhfə verəcək.

**- Cənab nazir, ictimaiyyəti narahat edən bir mövzuya da toxunmaq istərdik. Bu da son zamanlar Azərbaycan-Ermənistan sərhədində vəziyyətin yenidən gərginləşməsidir. Bu barədə nə deyə bilərsiniz?**

- Sualınıza cavab olaraq onu deyə bilərəm ki, Azərbaycan Ordusu bölmələrinin dislokasiya olunduğu Azərbaycan-Ermənistan dövlət sərhədi sahəsində və Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan Respublikasının ərazilərində vəziyyət daim nəzarətimiz altındadır. Burada baş verən hər hansı bir təxribata qarşı dərhal adekvat cavab tədbirləri görülür.

**- Ətraflı və səmimi cavablarınız üçün təşəkkür edirik. Bir daha bayramınız mübarək.**

- Sağ olun.

**Müsahibəni apardılar:**
**İsa İSMAYILOV**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü,**
**Nadiyə QAFAROVA**
**Azərbaycan Yazıçılar Birliyinin üzvü**

# "Xalq ordu birliyimiz möhkəmdir və qırılmazdır"

Ordumuz dövlətin dayağı, xalqın güvənc yeri və qürur mənbəyidir. Doğrudan da, nizami ordu, mərd və qorxmaz əsgərlərimiz olmasa, Vətəni nə qorumaq, nə də yaşatmaq olar. Bu gün hər birimiz rəşadətli və qalib ordumuzla fəxr edirik. Azərbaycan xalqı torpaqlarımızı işğaldan azad edən, xalqına Böyük Qələbə sevinci yaşadan ordusu ilə hər zaman qürur duyur. Hərbçilər Vətəni qorumaq kimi şərəfli vəzifə yerinə yetirirlər. Bu vəzifənin müqəddəsliyini dərk edən hər kəs daim ordusuna inanıb, güvənib. Ordu xalqın, xalq ordunun dayağı olub. 44 günlük Vətən müharibəsində də xalq əsgərinə olan güvənini, dəstəyini əsirgəmədi. Düşmənin başını əzən dəmir yumruq, məhz dövlət, xalq, ordu birliyinin yumruğu oldu. Bir sözlə Azərbaycanda dövlət-xalq-ordu birliyi sarsılmazdır.

Bu sarsılmazlığın göstəricisi kimi müxtəlif dövlət qurumlarının, özəl təşkilatların əməkdaşları, millət vəkilləri, orta və ali təhsil ocaqlarının nümayəndələri tez-tez hərbi hissələrə səfərlər edir, Vətən qoruyucuları ilə bir arada olurlar. Bu görüşlər xalqın daim əsgərinin yanında olduğunu, ona sonsuz güvəndiyini nümayiş etdirir. Həmçinin əsgərlərimiz də bu qayğıdan, onlarla görüşə gələn insanlardan eşitdikləri xoş sözlərdən, ordumuza olan inamdan ilham alaraq, daha yüksək əhval-ruhiyyədə xidmət aparırlar.

Ordumuza mənəvi dəstəyini heç zaman əsirgəməyən təşkilatlardan biri də Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsidir. Ordu həmkarları hər il dəfələrlə xeyirxah təşəbbüslər irəli sürərək, ordumuzun zabit və əsgərlərinə mənəvi dəstəyini əsirgəmirlər. Komitənin üzvləri tez-tez hərbi hissələrimizə baş çəkir, şəxsi heyətlə görüşlər keçirir, Vətən qoruyucularına müxtəlif hədiyyələr və bayram sovqatları aparırlar.



Növbəti belə görüşlərdən biri 26 İyun - Silahlı Qüvvələr Günü ərəfəsində baş tutdu. Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Zakir Müslümov "N" hərbi hissəsində oldu.

Əvvəlcə BHİK sədri birlik komandiri ilə görüşdü. General-mayor Mais Bərxudarov qonaqları səmimi salamlayaraq, göstərdikləri xeyirxah təşəbbüsə görə onlara minnətdarlığını bildirdi. Ordumuzun Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən hərtərəfli qayğıyla əhatə olunduğunu qeyd edən birlik komandiri sərhədlərimizin keşiyində inamla dayanan əsgərlərin bütün təminatlarının yüksək olduğunu dedi. "İşğaldan azad olunmuş ərazilərimizdə cənab Prezidentimizin rəhbərliyi ilə sürətlə yenidənqurma işləri aparılır. Həmin ərazilərə dislokasiya olunan bölmələrimiz üçün hər cür şərait yaradılıb və quruculuq işləri davam edir. Diqqət və qayğıdan yaranan ruh yüksəkliyi ilə Azərbaycan əsgəri sərhədlərimizin keşiyində inamla dayanır. Eləcə də sizlərin və timsalınızda əsgərlərin yanında olanların bayram ərəfəsində buraya gəlişi, əsgərlərimizə olan diqqətin təzahürüdür. Bu diqqət şəxsi heyətin mənəvi-psixoloji durumuna müsbət təsir edir. Belə xeyirxah təşəbbüslər xalqın əsgərinin yanında olduğunun sübutudur. Daim əsgərlərimizlə yan-yana olduğunuz üçün sizə və kollektivinizə birləşmə adından təşəkkürümüzü bildiririk".

Sonra BHİK sədri Komando hərbi hissəsinə gedərək, orada şəxsi heyətlə görüşdü. Azərbaycan Ordusunun yaranması günü münasibətilə onları təbrik edərək xidmətdə fərqlənən bir neçə hərbi qulluqçuya qiymətli hədiyyələr təqdim etdi.

"Müasir ordumuzun banisi ümummilli lider Heydər Əliyevin dediyi "Azərbaycan Silahlı Qüvvələrində xidmət etmək hər bir Azərbaycan vətəndaşı üçün, hər bir gənc üçün böyük iftixar mənbəyidir, şərəfli bir vəzifədir. Orduda xidmət etmiş, öz vətəndaşlıq borcunu yerinə yetirmiş hər bir gənc bizim cəmiyyətdə, həyatımızın bütün sahələrində ən dəyərli insan hesab olunmalıdır" sözlərini xatırlayıram. Bu sözlər Ulu Öndərimiz tərəfindən hərbçilərimizə olan sevginin nümunəsidir. Böyük şəxsiyyətin Azərbaycan xalqı qarşısındakı tarixi xidmətlərindən biri də müasir Azərbaycan Ordusunun memarı olmasıdır. Müstəqilliyimizin və ərazi bütövlüyümüzün etibarlı qarantı olan bugünkü güclü, rəşadətli Azərbaycan Ordusu xalqımızın ümummilli lideri Heydər Əliyevin şah əsərlərindən biridir. Müstəqil Azərbaycanda ordu quruculuğu prosesi Prezident İlham Əliyevin hakimiyyəti dövründə tamamilə yeni mərhələyə qədəm qoydu. Ulu Öndərin ordu quruculuğu siyasətini uğurla davam və inkişaf etdirən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı sayəsində hərbçilərin peşəkarlığının artırılması, şəxsi heyətin döyüş ruhunun və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, Azərbaycan Ordusunun ən müasir silah və texnika ilə təchizatı daim ön planda saxlanıldı. Məhz Prezident İlham Əliyevin bu ali diqqət və qayğısı sayəsində Azərbaycan Ordusu qısa müddətdə regionun ən qüdrətli ordusuna çevrildi. Ali Baş Komandanın rəhbərliyi altında rəşadətli ordumuz öz gücünü Aprel döyüşlərində və Günnüt zəfərində bir daha sübut etdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində Azərbaycan Ordusunun Prezident İlham Əliyevin Müzəffər Ali Baş Komandanlığı ilə qazandığı Şanlı Qələbə təkcə Azərbaycan tarixində deyil, dünya hərb elminin tarixində də mühüm izlər qoydu. Sizin cəsarətiniz, mərdliyiniz, döyüş meydanında göstərdiyiniz qəhrəmanlıqlar xalqımıza tarixi zəfər sevinci yaşatdı. Azərbaycan əsgərinin rəşadəti, mübarizliyi, Vətən sevgisi Böyük Qələbə qazandı. Sizin hər birinizi Azərbaycan Ordusunun yaranması günü münasibətilə şəxsim və Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin kollektivi adından səmimi qəlbdən təbrik edir, çətin və şərəfli xidmətlərinizdə uğurlar arzulayırıq. Biz Ali Baş Komandanımızla, rəşadətli ordumuzla, qəhrəman zabit, gizir əsgərlərimizlə fəxr edirik. Torpaqlarımızın azadlığı uğrunda şəhid olanların ruhları qarşısında baş əyir, yaxınlarına səbr diləyirik", - dedi Zakir Müslümov.

Sonra şəxsi heyət adından çıxış edən polkovnik Elşən Sanayev Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin kollektivinə təşəkkürlərini çatdırdı. "Xalqımızın inamından, bizə olan sevgisindən və rəğbətindən hər birimiz fərəhlənirik. Şərəfli peşəmizlə bir daha qürur duyuruq. Sevinirik ki, bizə olan etimadı layiqli şəkildə doğruldaraq Vətən müharibəsini qələbə ilə başa vurduq. Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə 44 günə düşmən qoşunlarını darmadağın edərək, ərazi bütövlüyümüzü təmin etdik. Şanlı qələbəmizdə xalqımızın mənəvi dəstəyi də böyük rol oynadı. Sizə və sizin timsalınızda xalqımızın hər bir nümayəndəsinə minnətdarıq. Belə görüşlər bir daha sübut edir ki, xalq ordu birliyimiz möhkəmdir və qırılmazdır. Biz də öz növbəmizdə, başda Ali Baş Komandanımız, müdafiə nazirimiz olmaqla, bütün silahdaşlarımızın bayramını təbrik edirik. Mütəmadi olaraq bizə göstərdiyiniz mənəvi dəstəyə görə, sizə və kollektivinizə minnətdarlığımızı bildiririk".

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**

# Əbədiyyət işığıdı bu birliyin işığı



Yolumuz qardaş ölkəyə - Türkiyə Respublikasınadır. Yadıma nə vaxtsa eşitdiyim bir musiqi düşür: "Sizə salam gətirmişəm". Azərbaycanın hərbi qulluqçularının Türkiyənin hərbi qulluqçularına ehtiramı kimi Azərbaycanımızdan Türkiyəmizə bir ürək tutumunca salam aparırıq. Dönüşümdə bir ürək tutumunca "əleyk"lə qayıdacam...

Göylərlə bizim aramızda ancaq buludlardı. Şəhidlərimizi düşünürəm, onların ruhunun bu buludlardan da ucada olduğunu düşünürəm... Göylərdə - buludların arasında düşüncələr nə qədər bənzərsiz olurmuş! Şəhidlərin sıralarında kursant yoldaşlarım da var. Düşüncələrim məni gah keçmişə, gah da gələcəyə aparır. Hər bir kursant yoldaşımı o illərdəki kimi xatırlayıram... Biz zamanında yaşlaşacağıq, onlar həmişə şəhid olduğu yaşda qalacaqlar...

Türkiyə səmalarındaykən qəribə bir doğmalıq hiss edirəm. Bu gözlənilməz doğmalıq xatırladır ki, Türkiyə ilə Azərbaycanın dövlət maraqları həmişə qarşılıqlı sevgiyə, ehtirama, sədaqətə söykənib. Bu sədaqət tarixi sədaqətdir, obrazlı şəkildə desək, tarixləşmiş sədaqətdir. Türkiyənin istiqlal savaşında da, Bakının bolşevik-daşnak qüvvələrindən azad edilməsində də tarix yaradan bu sədaqət, bu birlik, bu birliyi şərtləndirən güc tarixin axarını dəyişdi. Bu birliyi, bu ayrılmazlığı XX əsrin əvvəllərində Mustafa Kamal Atatürk "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" kimi, XX əsrin ortalarında Heydər Əliyev "Bir millət, iki dövlət" kimi tarixləşdirdi. Bu kəlamlar dostluğu, qardaşlığa sədaqəti yaşadan, əbədiyyən yaşadacaq kəlamlardır.

Azərbaycanın ərazilərinin işğal edilməsi, işğalın 30 ilə yaxın uzanması, Ermənistanın regionda mövcud status-kvonu saxlamaq niyyəti Azərbaycanın ədalətli müharibəyə başlayacağını zəruriləşdirmişdi.

Azərbaycan bəşəri dövlət, azərbaycanlılar bəşəri xalq olsa da, belə bir şəraitdə müharibə istəyirdi. 2020-ci il sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin döyüş əmri ilə əks-hücum əməliyyatı - Vətən müharibəsi başladı. Türkiyənin Vətən müharibəsinə mənəvi dəstəyi Azərbaycan əsgərinin döyüş əzmini, qələbə ruhunu daha da artırdı. Bu yüksəliş Zəfərlə tamamlandı...

Mustafa Kamal Atatürkün Azərbaycana sevgisini Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Bakıda keçirilən Zəfər paradında belə ifadə etdi: "Azərbaycan torpaqları illərdi həsrət qaldığı Tərtər çayının sularına qovuşmuşdur. Şuşanın dağlarının başındakı duman artıq dərdli deyil. Girov qalmış Xarı Bülbül artıq azaddır və daha gözəl açacaqdır. Köndələnçay artıq daha coşqun axacaq. Araz nəğməsini daha güclü oxuyacaq. Qarabağ şikəstəsini oxuyan nəfəslər daha yüksək, daha güclü olacaqdır".

Heydər Əliyevin Türkiyəyə sevgisini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "TEKNOFEST Azərbaycan" festivalında çıxışında belə ifadə etdi: "30 il ərzində türk qardaşlarımız daim bizim yanımızda olublar. Biz 30 il ərzində bu dəstəyi, bu qardaşlıq dəstəyini hər zaman hiss etmişik, bu gün də hiss edirik və bu gün Türkiyə-Azərbaycan yenə də bir yerdədir. Biz iki həftə bundan əvvəl Türkiyənin gözəl yerlərindən biri olan Rizedə əziz qardaşımla bərabər idik, iki həftədən sonra Bakıda yenə də bərabərik. Nə qədər Türkiyə və Azərbaycan bir yerdə inamla addımlasa, bölgəmizdə sülh və barış o qədər də möhkəm olacaqdır. Bunu biz və bütün dünya İkinci Qarabağ müharibəsi zamanı gördük. Türkiyə bizim yanımızda idi. Əziz qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın müharibənin ilk saatlarında "Azərbaycan tək deyil, Türkiyə onun yanındadır" deməsi bizə əlavə güc verdi, ruh verdi, inam verdi. Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq"...



Vətən müharibəsində qazanılan Zəfər Türkiyə ilə Azərbaycanın hərbi sahədə əməkdaşlığını daha sıx şəkildə möhkəmləndirdi. Bu əməkdaşlıq müxtəlif miqyaslı tədbirlərlə davam etdirilir.

Bu günlərdə Türkiyə Milli Müdafiə Nazirliyinin dəvəti ilə Mətbuat xidməti rəisinin müavini polkovnik-leytenant Anar Eyvazov, Azərbaycan Ordusunun Sənədli və Tədris Filmləri Mərkəzinin rəisi mayor İntiqam Cəfərov və mən Ankarada işgüzar səfərdə olduq. Bu səfər mahiyyəti etibarilə həm tanışlıq, həm də öyrənmə fəaliyyətini daha zəruri səviyyədə tənzimləmə baxımından memorandum xarakterli səfər idi. Hər iki dövlətin müvafiq hərbi qurumlarının fəaliyyətini ümumiləşdirməyə, qarşılıqlı inteqrasiyasını möhkəmləndirməyə xidmət edən bu səfərin başlıca missiyası təcrübə mübadiləsi idi.

"Xalqla ilişkilər" söz birləşməsi ilə "İctimaiyyətlə əlaqələr" söz birləşmələri arasında, sadəcə, səsləniş fərqi var. Türkiyədə də, Azərbaycanda da bu istiqamətdə fəaliyyət hərbi sirrin mühafizəsini gözləməklə dövlət maraqlarına, dürüstlüyün, gerçəkliyin ictimailəşdirilməsinə əsaslanır.

Üç gün müddətində xalqla ilişkilər Basın Müşavirliyində fəaliyyətin qurulması, koordinasiya edilməsi və ictimailəşdirilməsi ilə ətraflı tanış olduq.

Qurumun müşaviri albay Zəki Aktürk Türkiyədə bu fəaliyyət mexanizmi haqqında ətraflı məlumat verdi. İnformasiyaların işlənilməsi, ictimailəşdirilməyə hazırlanması mexanizmi xırda fərqlərlə Azərbaycanda da etibarlı təşkil edilib. Bu istiqamətdə Azərbaycanla Türkiyənin müvafiq strukturlarının fəaliyyəti arasında əminlik çalarları da müşahidə edilir və bu, gələcəkdə daha da intensivləşdiriləcəkdir. Bu nəzəriyyə dövlət maraqlarıdır, milli-mənəvi dəyərlərdir, azərbaycançılıqdır, türkçülükdür.

Tarixi kadrlar tarix haqqında dərslikdir. Görsəl Yapım Mərkəzində İstiqlal savaşından əvvəl çəkilmiş sənədli film formatlı kadrlar XX əsrin əvvəllərində (konkret olaraq 1916-cı ildə) yaşamış Sultan Rəşiddədin kimi, Ənvər Paşa kimi tarixi şəxsiyyətləri tanıtmaq missiyası olmaqla dəyərlidir. Azərbaycanımızda Ənvər Paşa tanınıb da, sevilib də, tanınır da, sevilir də. O illərdə məhtər marşlarında sevgilərlə anılan Ənvər Paşaya xitabən deyilən misralar indi də yaşarıdır: Ənvər Paşa, çox yaşa! Azərbaycanı da, Türkiyəni də bağımsız (müstəqil, azad) görmək istəyirdi Ənvər Paşa. Türkiyə də müstəqildir, Azərbaycan da. Türkiyə də güclü dövlətdir, Azərbaycan da. Azərbaycan torpaqlarının işğaldan azad edilməsi Türkiyənin Milli Müdafiə naziri Hulusi Akarı hansı səviyyədə sevindirdisə, Ənvər Paşanın ruhunu da həmin səviyyədə sevindirdi. Bu analogiyanı hamı Azərbaycanda da, Türkiyədə də türkçülüyün fəlsəfəsi bildi...



Müharibədən sonra döyüş kadrları çəkmək mümkün deyil - bu kadrlar hansı texnoloji yeniliklərin tətbiqi ilə çəkilir-çəkilsin, reallığı, gerçəkliyi tam əks etdirə bilməyəcək. Türkiyənin istiqlal savaşı indi tarixdir, qürurla xatırlanan tarixdir, Türkiyənin qurtuluş tarixidir. Bu gözəl (və gərəkli) tədbirdə istiqlal savaşını savaş içində yaşadıq - o illərdə İstanbula hücumu izləyə-izləyə yaşadıq. Bu kadrları çəkənlərə qəhrəman deyərdim. Bu kadrları izləyə-izləyə 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsini, döyüşlərdə çəkilən kadrları, "Hərbi nəşriyyat"ın səyyar mətbəəsində "Azərbaycan Ordusu" qəzetinin redaksiyasının əməkdaşlarının döyüşlərin xronikası kimi tarixləşdirdiyi səyyar qəzetləri xatırladım. Vətən müharibəsində istiqlal savaşının ruhunun eynisini gördüm...

Azərbaycanda Vətən müharibəsinin tarixi öyrənildə bu məqam da öyrəniləcək - hərbi mətbuatın döyüş tarixi kimi, ictimaiyyətlə əlaqələrin yeri, zamanına görə gərəkli bir çaları kimi...

Tədbir müddətində hər nə gördük, könlümüzə yatdı... Hər nə eşitdik, düşüncələrimizə hopdu...

Tofiq Fikrətin "İstiqlal marşı"nı mən də çox dinləmişəm. Hər dinləyəndə türkçülüyün qüdrətindən mən də qürurlanmışam: "Ey sevgili millət, yaşa, var ol!" - sədasına türkün türkçülüyə xeyir-duası demişəm. Tədbirdən "İstiqlal marşı"nın fəlsəfəsinin mahiyyətini açan sənədli filmə baxanda Məmməd İlqar demişkən, "Nə könül doyurdu, nə göz əl çəkirdi", "Ey sevgili millət, yaşa, var ol!" müraciəti ilə "Ey qəhrəman millətin şanlı Vətəni!" müraciətinin doğmalığını orada da duydum.

Türkiyədə "İstiqlal marşı" hər türkün, Türkiyəni sevənlərin ruhunun marşıdır. Bu marş ötən əsrin 20-ci illərinin tarixində də, yaddaşlarda da yaşadığının, yaşadıldığının carçısıdır. Bu marş Azərbaycanda da Türkiyədə sevildiyi kimi sevilir.

Azərbaycanda beynəlxalq tədbirlərin birində iştirak edən türk zabitinin Azərbaycan Himnini hansı sevgilərlə dinlədiyini heç zaman unutmaram. Tədbirdən sonra ona minnətdarlığımı bildirəndə "İstiqlal marşı"nı da belə dinləyirəm..." - demişdi...

Türkiyə "Görsəl Yapım" Mərkəzinin rəisi yarbay Oktay Tunçcan "Xalqla İlişkilər" üzrə iş müşavirliyi, Planlama və Analiz şöbəsinin rəisi albay Tahir Engin Bilgin fəaliyyət haqqında tezislər formatında söhbətləri yaddaşımıza hopdu.

Albay Zəki Aktürk tədbirdən sonra bizi necə deyərlər, məxsusi qəbul etdi. Bu, doğmalığın, qardaşlığın təzahürü idi, şübhəsiz. Vətəndən danışdı, Türkiyə ilə Azərbaycanın tarixi qardaşlığından danışdı.

Albay Tahir Engin Bilginin qürurla danışdığı bir hadisəni dinlədik. İstiqlal savaşında heç kimin tanımadığı ana toxuduğu corabları mehmetçiklərə - döyüşən əsgərlərə göndərirmiş. Bir müddət sonra həmin xanım artıq mehmetçiyin "əsgər anası" simvoluna çevrilmişdi və heç bir bayramda unudulmurdu. Onunla keçirilən görüşlər mehmetçiklərin Vətən sevgisini kükrədirdi. "Sevmişik, sevirik Vətəni, oğul. Vətəni sevin, Vətənsiz mən nəyə lazımam, siz nəyə lazımsınız", - deyirdi ana. Bu ana xalq-ordu münasibətinin canlı tarixi idi - belə yaşayırdı, bu münasibət belə yaşadılırdı. Ana son nəfəsindən sonra əsgəri sevgilərlə dəfn edildi. Mehmetçik (əsgər) dəfn edilirdi sanki.

Mehmetçiyi (əsgəri) bu səviyyədə ehtiramlarla əhatələnən məmləkətdə, əlbəttə ki, dövlət bayrağı müqəddəslik mərtəbəsinə ucaldılır. Mehmetçiyə (əsgərə) ana olan Ana, əlbəttə ki, dünyadan tanımadığı mehmetçik (əsgər) oğullarının çiyinlərində köçür. Belə ana, əlbəttə ki, əsgəri sevgilərlə dəfn edilir.

Yadıma Vətən müharibəsində anaların döyüşən orduya göndərdiyi corablar, əlcəklər, boğaz şalları düşdü. Yeni gözəl analogiya gözəl ovqat yaratdı - vətənsevərlik, xalq-ordu münasibətləri Türkiyədə də, Azərbaycanda da gözəl qurulub, gözəl yaşadılır, gözəl yaşadılacaq...

Ruhumuzun tarixə tarixi borcu kimi Mustafa Kamal Atatürkün məzarını - qəbrini ziyarət etdik...

Xalqla ilişkilər (ictimaiyyətlə əlaqələr) xalq üçündü, dövlət üçündü, dövlətçilik üçündü. Bu səbəbdən bu ilişkilərə (əlaqələrə) dövlət səviyyəsində diqqət var, onlar hərbi xidmətin tərkib hissəsi kimi məsuliyyətlə yerinə yetirilir. Türkiyədə də, Azərbaycanda da...

**Kapitan**
**Məmməd NƏSİRLİ**
**"Azərbaycan Ordusu"**

# 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə Azərbaycan Ordusunda silsilə tədbirlər keçirilib

*26 iyun - Silahlı Qüvvələr Günü münasibətilə Azərbaycan Ordusunun birlik, birləşmə, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrində silsilə tədbirlər keçirilib.*

Tədbirlərdə əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, dövlət himni səsləndirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, hərbi hissələrdə ictimai-siyasi hazırlıq dərsləri, dəyirmi masalar, konfranslar, muzeylərə ekskursiyalar, o cümlədən kitab, foto və rəsm sərgiləri təşkil olunub, sənədli və bədii filmlər nümayiş etdirilib. Həmçinin hərbi qulluqçular şəhidlərimizin məzarlarını ziyarət edib, onların ailələri ilə görüşüblər.



Bayram tədbirlərində Hərbi orkestrlərin, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin, Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin, həmçinin mədəniyyət və incəsənət nümayəndələrinin, rayon mədəniyyət şöbələri kollektivlərinin iştirakı ilə konsert proqramları təqdim olunub.





* * *

Azərbaycan Hərb Tarixi Muzeyinin təşkilatçılığı ilə Müdafiə Nazirliyinin Hərbi İdarəetmə İnstitutunun Hərb Oyunları Mərkəzində 26 iyun Silahlı Qüvvələr Gününə həsr olunan "Xalqımızı qalibiyyətə aparan Ordu" adlı tədbir keçirilib.

Tədbirdə Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin, Fövqəladə Hallar Nazirliyinin, Qarabağ müharibəsi veteranlarının nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçılarına "44 gün, 44 an" adlı sənədli film nümayiş edildikdən sonra Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə çıxışında bildirib ki, Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıtması nəticəsində Ordumuz ağır böhran vəziyyətindən xilas oldu. Nizami ordu yaradılması istiqamətində mühüm addımlar atıldı.

Prezident İlham Əliyev Ümummilli Liderin siyasətini uğurla davam etdirməsi nəticəsində ordumuz dünyanın ən müasir silah və texnikası ilə təchiz edildi. Qısa müddətdə hərbi hissələrin, ayrı-ayrı qoşun növlərinin formalaşdırılması tam başa çatdırıldı. 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan Ordusu düşmənə öz gücünü göstərdi və işğal edilmiş torpaqlarımızı azad etməyi bacardı".

Tədbirin sonunda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri vətənpərvərliyi tərənnüm edən mahnılar ifa etdikdən sonra xatirə şəkilləri çəkilib.

**Hüsniyyə İDRİSOVA**
**"Azərbaycan Ordusu"**

# Silahlı Qüvvələr Gününə həsr olunan "Rəngli perimetr" adlı layihədə yer alan sərgiyə 44 rəsm əsəri vəsiqə qazanıb






Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində Müdafiə Nazirliyinin təşkilatçılığı, Mədəniyyət Nazirliyinin, Azərbaycan Könüllülər İctimai Birliyinin, ASAN Radionun dəstəyi ilə 26 İyun Silahlı Qüvvələr Gününə həsr olunmuş "Rəngli perimetr" adlı layihədə yer alan sərgiyə hazırlıq prosesində rəsm əsərlərinə baxış keçirilib. 5-15 yaş arası uşaqlar və məktəblilərin kağız, kətan üzərində rəngli boyalarla çəkdikləri rəsmlərin əsas mövzusu düşməndən azad olunmuş Vətən torpağı, doğma yurd yerləri, rəşadətli Azərbaycan Ordusu və qədim Şuşa, azad Qarabağdır.

Xalq rəssamları Ağali İbrahimov və Xanlar Əhmədov, Əməkdar incəsənət xadimi Ziyadxan Əliyev, Mədəniyyət Nazirliyinin Sərgi və qalereyalar sektorunun müdiri Aqşin Mirfeyzullazadə və Azərbaycan Könüllülər İctimai Birliyinin Mədəniyyət və incəsənət departamentinin rəhbəri Ülviyyə Bəbirli, o cümlədən Müdafiə Nazirliyinin nümayəndəsi Zəhra Usubovanın təmsil olunduqları münsiflər heyətinin qərarına əsasən mövzu, ideya, işlənmə texnikası və üslub baxımından orijinallığı ilə seçilən 44 rəsm əsəri gələcəkdə açılacaq sərgidə nümayiş olunacaq.

44 rəsm əsərindən ibarət keçiriləcək sərgidə qaliblər 1-ci, 2-ci və 3-cü yerlər üzrə müəyyənləşəcək. Qaliblər diplomlar və qiymətli hədiyyələrlə mükafatlandırılacaq.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# İdman

## Cüdoçularımız Avropa birinciliyinin komanda yarışında bürünc medal qazanıblar



Xorvatiyanın Poreç şəhərində yeniyetmə cüdoçular arasında Avropa birinciliyinin komanda yarışları keçirilib.

Azərbaycan cüdoçuları üçüncü yer uğrunda Polşa yığmasına 4:2 hesabı ilə qalib gələrək çempionatın bürünc medalını qazanıblar.

Yeniyetmə oğlanlardan ibarət milli komandamız fərdi yarışlarda 2 qızıl, 4 bürünc medal qazanaraq Avropa birinciliyində medal əyarına və sayına görə birinci yeri tutub. Ümumi komanda hesabında isə 3 qızıl, 1 gümüş və 4 bürünc medalla Azərbaycan yığması ikinci yeri tutub.

## Boksçularımız beynəlxalq turnirdə 3 qızıl və 4 gümüş medal qazanıblar




Rumıniyanın Georgeni şəhərində yeniyetmə və məktəbli boksçular arasında keçirilən beynəlxalq turnirə yekun vurulub.

Azərbaycan millisi 12 ölkədən 212 idmançının qatıldığı yarışı 3 qızıl və 4 gümüş medalla başa vurub.

Oğlanlardan ibarət yığmamızın 2 boksçusu çempion tutuluna yiyələnib. Turnirdə 54 kiloqram çəki dərəcəsində qüvvəsini sınayan Məhəmmədəli Aşıraliyev finalda Florin Kaldararu (Rumıniya) ilə döyüşüb və 5:0 hesabı ilə inamlı qələbə qazanaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Məhəmmədəli Qasımzadə (57 kq) də finalda komanda yoldaşının uğurunu təkrarlayıb. Avropa birinciliyinin mükafatçısı həlledici görüşdə bolqarıstanlı Viktorio İliyevlə gücünü yoxlayıb. Döyüşü 5:0 hesabı ilə aktivinə yazan boksçumuz turniri birinci yerdə başa vurub.

Tacı Nəsibov (50 kq) isə yalnız finalda məğlub olaraq ikinci yeri tutub.

Qızlardan ibarət millinin heyətində isə Emili Rzayeva (70 kq) bütün rəqiblərindən güclü olub. O, finalda Maria Tanaseskuya (Rumıniya) qalib gələrək Azərbaycan Himnini səsləndirib.

Komandamızın heyətində Aysu İsmayılova (46 kq), Nərmin Əlizadə (50 kq) və Aynur Mikayılova (52 kq) turniri gümüş medalla başa vurublar.

Beləliklə, yarışa 8 boksçu ilə yollanan Azərbaycan millisi turniri 7 medalla bitirib.

## Gənc cüdoçumuz Avropa kuboku yarışında bürünc medal qazanıb




Bosniya və Herseqovinada cüdo üzrə gənclər arasında Avropa kuboku yarışı keçirilir.

Turnirin ilk yarış günündə qızlar arasında 63 kiloqram çəki dərəcəsində mübarizə aparan Azərbaycan cüdoçusu Aytac Qardaşxanlı bürünc medal qazanıb. O, həlledici mərhələdə fransalı rəqibi Yuliye Falqonu məğlub edib.

## İdmançımız Ülvi Məmmədov Asiya çempionatında qüvvəsini sınayacaq



Beynəlxalq Şotokan Karate-do Federasiyasının yığma komandasının üzvü Ülvi Məmmədov böyüklər arasında keçiriləcək şotokan üzrə Asiya çempionatında iştirak edəcək.

Azərbaycan idmançısı mötəbər yarışa Beynəlxalq Şotokan Karate-do Federasiyasının vitse-prezidenti, 6-cı dan qara kəmər sahibi Rafael Məmmədovun və məşqçisi Elnur Əliyevin rəhbərliyi altında qatılacaq. Yarış iyulun 1-3-də Qırğızıstanda keçiriləcək.

**AZƏRTAC-ın materialları əsasında**

| Baş redaktorun müavini | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
| --- | --- | --- | --- | --- | --- | --- |
| kapitan Məhəmməd NƏSİRLİ | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | leytenant Oruc MUSTAFAYEV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 713 Nüsxə 4673 |